**AZƏRBAYCAN RESPUBLİKASI**
MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

**M.F.AXUNDOV adına**
**AZƏRBAYCAN MİLLİ KİTABXANASI**

# LƏTİF KƏRİMOVUN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ İLƏ ƏLAQƏDAR KİTABXANALARIN GÖRƏCƏYİ İŞLƏR

BAKI – 2006

**AZƏRBAYCAN RESPUBLİKASI**
MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

**M.F.AXUNDOV adına**
**AZƏRBAYCAN MİLLİ KİTABXANASI**

KİTABXANA SİYASƏTİ VƏ METODİK
RƏHBƏRLİK ŞÖBƏSİ

***Lətif Kərimovun 100 illik yubileyinə həsr olunmuşdur***

# LƏTİF KƏRİMOVUN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ İLƏ ƏLAQƏDAR KİTABXANALARIN GÖRƏCƏYİ İŞLƏR

***METODİK VƏSAİT***

*Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik tövsiyələr*

Mədəniyyət və Turizm Nazirliyi
nəzdində Koordinasiya Şurasının
2006-ci il 21 iyun tarixli 2 nömrəli
protokolu ilə çapa tövsiyə olunub

**BAKI - 2006**

*Tərtibçi:* ***Məmməd Məmmədov, Kitabxana siyasəti və metodik rəhbərlik şöbəsinin bölmə müdiri***

*Redaktor:* ***Nailə Alışova, Kitabxana siyasəti və metodik rəhbərlik şöbəsinin aparıcı elmi işçisi***

*Rəyçilər:* ***Aybəniz Əliyeva-Kəngərli,Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının direktoru***

***Lətif Kərimovun 100 illik yubileyinin keçirilməsi ilə əlaqədar kitabxanaların görəcəyi işlər: Metodik vəsait. -B., 2006.- 19 s.***

© M.F.Axundov adına Milli Kitabxana, 2006

## *LƏTİF KƏRİMOV – 100*

Hər bir xalqın mədəniyyət tarixində elə yaradıcılıq sahələri vardır ki, orada bu xalqın özünəməxsus çoxəsrlik ənənələri, mənəvi aləmi, xarakterik cizgiləri, intellekti, aləmi dərk etməsi, estetik görüşləri və həyat fəlsəfəsi öz təcəssümünü bütünlüklə əks etdirir.

Hələ qədim zamanlarda Azərbaycan xalqı üçün uzun əsrlər ərzində əmək fəaliyyəti və bədii estetik fikrin ifadəsinin belə növü xalça sənəti olmuşdur.

Azərbaycan xalça sənəti dünya mədəniyyətinin üzvi hissəsi olmaqla yanaşı, onu özünəməxsus təfəkkürü və incəliyi ilə zənginləşdirmişdir.

Azərbaycan sənətkarlıarının yüksək texniki, bədii xüsusiyyətləri ilə seçilən xalça nümunələri həmişə onu görənləri valeh etmişdir. Elə bu səbəbdəndir ki, dünyanın ən zəngin muzeyləri və kolleksionerləri bu nadir sənət nümunələrini əldə etməyə çalışmışlar. İndi Londonun Viktoriya və Albert, Parisin Luvr, Vaşinqtonun Metropoliten, Vyananın, Romanın, Berlinin, İstambulun, Tehranın, Qahirənin zəngin muzeylərində Təbriz, Naxçıvan, Gəncə, Qazax, Quba, Bakı, Qarabağ və digər xalçaçılıq məktəblərinə xas olan nəfis nümunələr əsrlərdən bəri saxlanılır.

Azərbaycan xalçaçılığı öz tarixində müxtəlif texnoloji və bədii inkişaf mərhələləri keçmiş, daxili istehlakı ilə yanaşı xarici ölkələrdə də geniş şöhrət qazanmış və dünya bazarlarında həmişə yüksək qiymətləndirilmişdir.

Azərbaycan xalça sənətinin qocaman ustadı Lətif Kərimovun onlarca bədii sənət nümunələri sayılan xalçaları muzeylərimizin gözəl eksponatlarındandır.

Noyabr ayının 17-də Stalin mükafatı laureatı, Azərbaycanın xalq rəssamı L.Kərimovun 100 yaşı tamam olur. Xalq sənətimizin ulu örnəklərindən olan xalçaçılığın elm sahəsi kimi tədqiq edilib öyrənilməsində, onun professional sənət növü kimi yüksək səviyyəyə çatdırılmasında və kütləvi istehsal sahələrindən birinə çevrilməsində ustad sənətkarın əvəzsiz xidmətləri olmuşdur.

Lətif Kərimov 1906-cı ildə Azərbaycanın Qarabağ mahalının Şuşa şəhərində anadan olmuşdur. Onların nəsli – bütün «Allahverənlər» tayfası toxuduqları qəşəng xalçaları ilə Qarabağ mahalında məşhur olmuşdur.

1912-ci ildə onların ailəsi İranın Məşhəd şəhərinə köçmüşdür. Xalça sənətinə məhəbbəti Lətifi burada Mirzə Ələkbər Hüseynzadənin emalatxanasına gətirib çıxarmışdır. Müstəsna

bacarığı sayəsində üçillik şagirdliyi üç aya başa vuran Lətif usta köməkçisi vəzifəsinə irəli çəkilmişdir. Sənətini təkcə Məşhəd emalatxanasında öyrəndikləri ilə məhdudlaşdırmaq istəməyən gənc Lətif Təbriz, Ərdəbil kimi məşhur xalça mərkəzlərini gəzib, hər sənətkardan, hər toxucudan bir təkrarsız ilmə vurmaq, bir naxış salmaq öyrənmişdir.

O,Azərbaycanda bolşevik hakimiyyətinin qələbəsi dövründə sonra xalq sənəti növləri üzrə istehsalat sahələri yox dərəcəsində idi. O,belə bir çətin vaxtda bu sahədə ilk ixtisaslı, təcrubəli kadr kimi işə başlamalı olmuşdur. Xalçaçılıq sənətinin incəliklərinə dərindən bələd olan rəssam, onun köhnə şöhrətinin qaytarılması yollarını axtarır və buna görə də respublikanın müxtəlif rayonlarına səfər edərək, əsrlərdən bəri formalaşmış xalçatoxuma işinin yerli ənənələrini, sirlərini öyrənməyə can atmışdır. Lətif Kərimov bu sahədəki ilk addımlarını anadan olduğu Şuşa şəhərində atmalı olmuşdur. Şuşa şəhərində «Qarabağxalça» artelində 1928-ci ildə təlimatçı kimi fəaliyyət göstərən Lətif Kərimov, başqa rayonlarda da yerli xalçatoxuma işinin sirlərini öyrənirdi.

O, 1930-cu ildən xalça sənəti mütəxəssisi kimi «Azərbaycanxalça» birliyində rəssam-təlimatçı vəzifəsində fəaliyyət göstərmişdir.

İlk dəfə olaraq Bakıda və Qubada (1932-36) xalça məktəblərinin açılmasında Lətif Kərimovun böyük zəhməti

olmuşdur. Lətif Kərimov təcə xalçaçılıq sahəsində deyil, dekorativ tətbiqi sənətin başqa sahələrində də fəaliyyət göstərmişdir.

1930-40-cı illər Lətif Kərimovun yaradıcılığında xüsusi yer tutur. Bu illərdə yaratdığı bədii təptibatlarda və başqa sahələrdə Şərqin bədii sənət xəzinəsindən ilham almış ustad əlinin izlərini görürük.

Lətif Kərimovun xalçaları həmin illərdən başlayaraq artıq Azərbaycandan uzaqlarda da böyük rəğbət və maraqla qarşılanır. Onun Firdovsinin anadan olmasının 1000 illiyinə həsr etdiyi xalçası 1934-cü ildə Parisdə Ümumdünya sərgisində uğurla nümayiş etdirilmişdir. O, min illərdən başlayaraq Azərbaycan xalçaçılarının müxtəlif növlərinə aid kompozisiya və naxışları toplanmış və beləliklə Quba, Şirvan, Bakı, Qazax, Gəncə, Qarabağ, Təbriz və Borçalı xalça qruplarına daxil olan 150-dən artıq xovlu və xovsuz xalça məmulatı çeşidlərini yığıb, onların rəngli reproduksiyasını hazırlamışdır.

Onun 1937-1939-cu illərdə Moskvada Ümumittifaq Kənd Təsərrüfatı Nailiyyətləri Səpgisində Azərbaycan Respublikasının pavilyonuna verdiyi bədii tərtibat, binanın

Milli memarlıq forması ilə möhkəm vəhdət təşkil edirdi.

Lətif Kərimov uzun illər Bakıda və həm də Quba rayonunda baş ustalar hazırlayan xalçaçılıq texnikumunda xalçaçılığın texnologiyasından, boyama və rəsm işindən, xalça incəsənətinin

inkişaf tarixindən dərs demişdir. Təhsil müddətinin xeyli vaxt aparması ilə bağlı texnikum bağlanır və əvəzinə 6 aylıq kurslar təşkil edilir. Lətif Kərimovun adı ilə bağlı olan belə kurslar müharibənin əvvəlinədək davam etmiş, ixtisaslı toxucu kadrların hazırlanmasında və Azərbaycan xalçaçılığının keçmiş şöhrətinin qaytarılmasında xüsusi rol oynamışdır.

Lətif Kərimov tanınmış rəssamlarımız (K.Kazımzadə, İ.Axundov və başqaları) ilə birlikdə 1940-41-ci illərdə dahi Azərbaycan şairi Nizami Gəncəvinin yubileyinə həsr edilmiş beş xalça hazırlamışdır. Bu xalçalarda şairin «Xəmsə»sinə daxil olan poemalardan götürülmüş epizodlar təsvir edilmişdir. Ornament hissələrinin rəssamı kimi bu xalçaların toxunmasına rəhbərlik edən L.Kərimov və başqa müəlliflər xalçalarda süjetli səhnələrlə, naxış haşiyəsinin uyğun verilməsinə müvəffəq olmuşlar. Azərbaycan miniatürlərinə xas olan aydın rənglərdən və dekorativ şərti təsvir motivlərindən burada yerli-yerində istifadə edilmişdir.

Onun ornamentalist və yüksyk ustalıqla xalçaşünaslıq sahəsində aparılan elmi-tədqiqat işləri də xüsusi əhəmiyyət kəsb edir.

Elmi-yaradıcılıq fəaliyyətinə Azərbaycan SSRİ EA-nın Memarlıq və İncəsənət institutunda başlayan Lətif Kərimov 1945-ci ildə ayrıca xalça şöbəsinin açılmasına nail olumuşdur. Onun rəhbərliyi və yaxından köməkliyi ilə xalçaşünaslığın müxtəlif problemlərinə aid tədqiqat işlərinin həcmi genişlənmişdir. Xalça sənətimizin etimologiyasını yorulmadan öyrənən rəssamın yaratdığı yeni motivlər, təzə elementlər Azərbaycan ornament sənətinin inkişafında böyük rol oynayır. Onun «Azərbaycan xalçalarında ornament» kitabı xalçalarımızdakı naxışların, ornamentlərin öyrənilməsi baxımından misilsiz əhəmiyyətə malikdir. Böyük elmi əhəmiyyəti olan bu əsərə görə 1950-ci ildə Lətif Kərimova Leninqrad şəhərində sənətşünaslıq namizədi-alimlik dərəcəsi verilmişdir. Onun monumental tədqiqat işlərindən biri də çoxcildli «Azərbaycan xalçası» monoqrafiyasıdır. Birinci cildi 1961-ci ildə dərc edilən monoqrafiya qırx ilə yaxın aparılan elmi işlərin bəhrəsidir. Dünya xalça alimlərinin stolüstü kitabına çevrilən ilk cilddə Azərbaycan xalçalarında istifadə olunan 1200 element haqqında dəyərli elmi məlumat verilmişdir. Əsərin II və III cildləri də (1983-cü ildə çap edilib) eyni dərəcədə böyük elmi əhəmiyyətə malikdir. Həmin cildlərdə Azərbaycanda xalçaçılıq sənətinin yaranması və inkişafı tarixinin mühüm məsələləri, xalça kompozisiyaları haqqında qiymətli elmi fikirlər vardır.

Lətif Kərimovun təşəbbüsü ilə 1972-ci ildə Bakıda xalça muzeyi təşkil olunmuşdur.

Lətif Kərimovun bir sənətkar və alim kimi əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, 1949-cu ildə İ.Stalinin anadan olmasının 70-illiyinə töhfə olunan nəhəng və nəfis xalçanı toxuyan kollektivə bacarıqla rəhbərlik etdiyinə görə öz həmkarları ilə birgə Stalin mükafatı laureatı adına layiq görülmüşdür. Xalqlar Dostluğu Ordeni ilə təltif olunmuşdur.

## *LƏTİF KƏRİMOVUN HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ*

***1906*** Lətif Hüseyn oğlu Kərimov Qarabağın qədim Şuşa şəhərində anadan olmuşdur.

***1912*** Ailəsi ilə birlikdə İranın Məşhəd şəhərinə köçmüş və orada xalça emalatxanasında şagird və usta köməkçisi işləmişdir.

***1929*** İrandan Bakıya qayıdan rəssam əvvəllər Şuşadakı «Qarabağxalça» artelində təlimatçı kimi işə başlamışdır.

***1930*** «Azərxalça» birliyində rəssam-təlimatçı, sonralar oranın bədii-texniki rəhbəri olmuşdur.

***1932*** Onun eskizləri əsasında «Əfşar» xalçası to- xunmuşdur.

***1934*** Firdovsinin 1000 illiyinə həsr edilmiş xalçası toxunmuşdur.

***1935*** Bakı və Quba şəhərində açılmış xalça texnikumu və kurslarında dərs demişdir.

***1937*** Moskvada Ümumittifaq Kənd Təsərrüfatı Nailiyyətləri sərgisində Azərbaycan Respublikası pavilyonunun tərtibatını vermişdir. Həmin ildə «Ş.Rustaveli» xalçası toxunmuşdur.

***1940*** L.Kərimov dahi şair Nizami Gəncəvinin yubileyinə həsr edilmiş «Xəmsə»nin motivləri əsasında beş xalçanın tərtibatını hazırlamışdır.

***1945*** Azərbaycan EA-nın Memarlıq və İncəsənət İnstitutunda Dekorativ-tətbiqi sənət şöbəsinin müdiri olmuşdur.

***1947*** L.Kərimovun eskizi ilə «Moskvanın 800 illiyinə» xalça toxunmuşdur.

***1953*** «Şuşa» xalçasını toxunmuşdur.

***1955*** Azərbaycan SSR Əməkdar incəsənət xadimi adına layiq görülmüşdür.

***1956-1960*** Bu dövrdə o, «S.Vurğun», «N.Nərimanov», «Qarabağ» xalçalarını toxumuşdur və Azərbaycan SSR Xalq rəssamı adına layiq görülmüşdür.

***1961*** Lətif Körimovun Leninqradda üç cildlik «Azərbaycan xalçası» toplusu çap edilmişdir.

***1963*** M.Ə.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun bədii toxuculuq kafedrasında müəllim işləmişdir.

***1964-69*** «İslami», «Butalı», «Vaqif», «Bahar», «Heyvanlar aləmində» xalçalarını toxumuşdur.

***1972*** Onun təşəbbüsü ilə Bakıda xalça muzeyi yaradılmışdır. Həmin ildə «Nəsimi» xalçası toxunmuşdur.

***1975*** «Səfiəddin Urməvi» və «Şəbi-Hicran» xalçası toxunmuşdur.

*1976* «Əcəmi» xalçası toxunmuşdur.

*1977* «Zərxara» xalçası toxumuşdur.

*1978*

*1991* Böyük ustad, Azərbaycan xalça sənətinin yorulmaz təbliğatçısı, rəssam L.Kərimov Bakıda vəfat etmişdir.

## *ELM VƏ MƏDƏNİYYƏT XADİMLƏRİ*

### *LƏTİF KƏRİMOV HAQQINDA*

Bir şəxsin özünü, sənətini sevmədən portretini işləmək məncə, mümkün deyil. Mən Lətif Kərimovun portretini işləmişəm. L.Kərimov mənim üçün kimdir?

Respublikanın ən görkəmli dekorativ sənət ustası, yeganə xalça rəssamımız. Qızıl, gümüş, fil sümüyü üzərində ən zərif işlər işləyən zərgər. Sənəti, respublikamızın, xalqımızın, doğma vətənimizin adını uzaq-uzaq ölkələrdə tanıdan alim.

***Mikayıl Abdullayev,***

***SSRİ Xalq rəssamı***

Bu yaxınlarda çətinliklə də olsa, sizin «Azərbaycan xalçası» kitabınızı tapa bildim. Bu qiymətli kitab Zaqafqaziya xalçalarındakı ornamentlərin mənşəyini öyrənmək üçün əsl mənbədir. Əsərinizlə tanış olduqdan sonra mənə vacib bir şey də aydın oldu: Zaqafqaziya xalçalarının 90 faizi Azərbaycana məxsus imiş!

***Ekspert Georq Adamz,***

***Belçika, Brüssel,***

Sizə məlum olsun ki, əsəriniz Şərq mədəniyyəti və tarixi üzrə qiymətli kitabların qızıl fonduna daxil edilmişdir.

***Doktor Leon Perkis***

***Kaliforniya ştatı ( ABŞ)***

Hər bir xalçanız öz-özlüyündə incəsənət əsəri, onların ornamentləri isə nadir və zəngindir.

***Devi Kelati,***

***Sənətşünas( İngiltərə )***

Sizə göndərdiyim xalça fotolarını aydınlaşdırıb izah etdiyiniz üçün təşəkkür edirəm. Qafqaz xalqlarının mənşəyi haqda bizim sənətkarların az məlumatı var. Bu barədə Şurmanın kitabı isə səhvlərlə doludur. Buna görə də Sizin əsər bizim üçün çox dəyərlidir.

***Doktor Robert Mauer,***

***İllinoye ştatı( ABŞ)***

«Azərbaycan xalçaları» əsəri bütün ölkələrin alimlərini maraqlandırırsa, təkcə müəllif yox, həm də Azərbaycanı, onun sənətini təmsil edirsə və biz də bu torpağın övladlarıyıqsa, demək, bizim də bu səadətdə payımız var. Müəllifin özünü də bu torpaq yetirib. Məhz «Azərbaycan xalçaları» kitabının sayəsində, sənətşünas Kərim Kərimovun diliylə desək, vaxtı ilə «Şərq», «İran», «Qafqaz» adları altında tanınan bir çox xalçalar bu gün yeni pasport-«Azərbaycan xalçası» adını alıb.

Bu yuxarıda qeyd edilənlərə görə Azərbaycanın Xalq rəssamı, SSRİ Dövlət mükafatı laureatı Lətif Kərimov haqlı olaraq, görkəmli sənətkarlar və alimlər sırasında fəxri yer tutur.

***Ofelya Mirzəzadə,***

***Sənətşünas***

Əgər Siz şərtləşdiyimiz kimi, beynəlxalq miqyasda tanınan bizim jurnalda əməkdaşlıq etməyə razı olsa(xalça sənəti üzrə xüsusi jurnal – Heyteks) əlaqələrimiz daha da möhkəmlənər.

***Doktor Lixterbek,***

***Frankfurt (AFR)***

Azərbaycan xalqının bədii mədəniyyətinin ən zəngin sahələrindən olan xalça və ornament sənətləri dedikdə biz, bir sənətkar kimi, bir alim kimi Lətif Kərimovu xatırlayırıq, bu sahələri onun adı ilə bağlayırıq. Bu ona görə belədir ki, Lətif müəllim bu sənətlərin canlı timsalıdır. Klassik sənətimizi bütün dərinliklərinə qədər bilən, hiss edən Lətif Kərimov fitri istedadıyla yanaşı, böyük müşahidə qabiliyyətinə, görmək, təhlil etmək qabiliyyətinə malik bir sənətkardır. Xalça sənətimizin əsrarəngiz təsviri ünsürləri Lətif müəllimin şərhindən sonra bizim üçün çox aydın oxunan bir kitaba çevrilir.

Lətif Kərimovun fəaliyyətinin bir sənətkar və tədqiqatçı kimi xalq sənətimizin yaşaması və araşdırılması işində müstəsna əhəmiyyəti vardır.

***Ə.V.Salamzadə,***

***Azərbaycan Milli Elmlər***

***Akademiyasının müxbür üzvü***

Bir rəssam-sənətkar və alim kimi Lətif Kərimovun yaradıcılıq diapazonu geniş və çoxcəhətlidir. Xalçaçılıq sənətində o, sözün əsl mənasında nadir istedaddır. Elə bir istedad ki, onun yaradıcılığında çox qədim tarixə, zəngin ənənəyə malik olan, dünya şöhrəti qazanmış xalça sənətimizin bütün sahə və cəhətləri – elmi-nəzəri, rəssamlıq və texniki ifaçılıq cəhətləri ayrılmaz vəhdət halında birləşib. Lətif Kərimova qədər bu sənəti dərindən və hərtərəfli bilən, indiyə qədər bağlı qalan «düyünlər»i açan, sirlərini bəlliləşdirən alim-rəssam-sənətkar isə yəqin ki, olmamış və yoxdur.

***Kərim Kərimov,***

***Sənətşünaslıq doktoru***

Lətif Kərimovun incə sənətlər aləmində tutduğu mövqedən danışarkən, onun klassik ədəbiyyata, poeziyaya münasibətini heç cür

unutmaq olmaz. Lətif Kərimovun rəssamlığı, məncə, həmişə musiqi və poeziya ilə əlaqədə inkişaf etmişdir. Bu üç növ sənət onun mənəvi dünyasını təşkil edir.

***Əkrəm Cəfər,***

***Filoloji elmlər doktoru***

Lətif Kərimovun yaradıcılığı nə qədər mürəkkəb, çoxcəhətli olsa da, ondan söhbət gedəndə o dəqiqə xalçaları yada düşür. Əlbəttə, bu da onunla bağlıdır ki, Lətif nə qədər geniş diapazonlu sənətkar olsa belə, yenə ilk addımlarını xalçaçılıqda atıb. Azərbaycan xalça sənətində onun rolu böyükdür. Bu sənəti elmi əsaslarla yazıya çevirib («Azərbaycan xalçası» kitabı) dünyada tanıdan sənətkara hamımız minnətdarıq.

***Kazım Kazımzadə***

***Azərbaycan SSRİ Xalq rəssamı***

## *LƏTİF KƏRİMOVUN YARADICILIQ İRSİNİN KİTABXANALARDA TƏBLİĞİ*

2006-cı il noyabrın 17-də görkəmli xalça ustası, ornamentalçı rəssam Lətif Kərimovun anadan olmasının 100 illiyi tamam olur. Onun eskizləri və başçılığı ilə toxunan xalçalar Azərbaycan xalqının mənəvi sərvətinə çevrilmişdir. O, ömrünün çox hissəsini bu sənətə həsr etmişdir və həmin sənəti elmi əsaslarla yazıya köçürülmüşdür. Azərbaycan xalça sənətini dünyada tanıdan sənətkarın yaradıcılığı istər mütəxəssislərin, istərsə də geniş sənətsevərlərin daim diqqət mərkəzində olmuşdur.

Bir əsrlik yubiley ilində bütün mədəni-maarif müəssisələri ilə yanaşı, kitabxana kollektivləri də fəal iştirak etməli, imkanlarını böyük sənətkarın xalça sənətinin təbliğ olunmasına yönəltməlidir.

Kitabxanaların fəaliyyətində istifadə olunan ənənəvi təbliğatın forma və metodların köməyi ilə, onun sənəti ilə maraqlanan çoxsaylı oxucu kütləsinin sorğularını ödəmək üçün həm L.Kərimovun həyat və yaradıcılığına dair ədəbiyyatdan, həm də onun əvvəlki yubiley illərinin ilə əlaqədar olaraq həsr olunmuş materiallardan geniş istifadə olunmalıdır. Belə ki, milli mədəniyyətimizin iftixarı olan L.Kərimovun zəngin xalçaçılıq sahəsindəki yaradıcılıq irsini geniş oxucu kütləsi arasında yaymaq kitabxanaçıların ümdə vəzifəsi olmalıdır.

L.Kərimov öz yaradıcılıq dövründə kitab tərtibatı, keramika, ağac, metal və daş üzərində oyma sənəti sahəsində də gözəl sənət nümunələri yaratmışdır. Sənətkarın bu sahələrdəki nailiyyətləri barədə də məlumat verilməsi məsləhətdir.

L.Kərimov yaradıcılığını kitabxanalarda təbliğ etmək üçün keçirilən tədbirlər planına sual-cavab gecələrinin, fərdi söhbətlərin salınması böyük əhəmiyyətə malikdir. Çünki belə tədbirlər Lətif Kərimov və onun yaradıcılığı haqqında oxucuların geniş və müfəssəl məlumat almalarına imkan yaradır. Belə tədbirlər keçirilərkən onun sənəti ilə maraqlananlarda həmin xalçalar haqqında geniş təsəvvür yaradılmalıdır.

Sual-cavab gecələri şifahi təbliğatın mühüm formalarından sayılır. Bu tipli tədbirlər zamanı ustad sənətkar L.Kərimov haqqında umumi məlumatların oxuculara çatdırılmasında, onun yaradıcılığı haqqında informasiyanın verilməsində və s. məsələləri aydınlaşdırmaqda sınaqdan çıxmış səmərəli formalardan biri sayılır. Sualları cavab verəcək kitabxanaçı son dərəcədə hazırlıqlı olmalıdır. Çünki, keçirilən tədbirdə oxucular tərəfindən əlavə suallar da meydana çıxa bilər. Tərtib olunan suallar ilk növbədə L.Kərimov haqqında seçilmiş mövzulara görə ayrılmalıdır.

Nümunə üçün sual-cavab gecələrini aşağıdakı mövzular üzərində qurmaq olar:

➢ L.Kərimovun həyat və yaradıcılığı haqqında umumi məlumatlar

➢ İlmələr, naxışlar ustadı L.Kərimov.

➢ Azərbaycan xalçalarının dünya miqyasında təbliğində ustad sənətkarın rolu.

Beləliklə oxuculara ünvanlanan hər bir sual yeni bilik və məlumatların formalaşması yollarını müəyyənləşdirir.

L.Kərimov sənətini təbliğ etmək məqsədilə sərgilərin təşkil etmək də böyük əhəmiyyət kəsb edir. Sərgilər müəyyən tədbirlər keçirildikdə hökmən təşkil edilməlidir. Çünki bir qayda olaraq sərgi tədbiri tamamlayır. Lətif Kərimovun həyat və yaradıcılığını, onun haqqında olan materialları oxuculara əyani surətdə təqdim etmək üçün onun fərdi sərgisinin təşkili məqsədəuyğundur. Bu vəsaitdə L.Kərimov haqqında mədəniyyət və elm xadimlərinin fikirləri verilmişdir. Aşağıda belə bir sərginin təxmini sxemini veririk:

| | | |
|---|---|---|
| 5 | 6 | 7 |
| 8 | 9 | |
| 10 | 11 | 12 |
| 13 | 14 | |
| 15 | 16 | |

**1.** ***Başlıq:*** «Lətif Kərimov – 100»

**2.** Lətif Kərimovunı əsərləri, onun həyat və yaradıcılığını əks etdirən materiallar.

**3.** Lətif Kərimovun şəkli.

**4.** Elm və mədəniyyət xadimlərinin L.Kərimov haqqından fikirləri.

**5.** Lətif Kərimovun rəhbərliyi və eskizləri əsasında toxunmuş xalçaların illüstrasifaları. « Əfşan» xalçasının illüstrasiyası.

**6.** *«Firdovsi»* xalçasının illüstrasiyası.

**7.** *«Qonaqkənd»* xalçasının illüstrasiyası.

**8.** *«Moskvanın 800 illiyinə»* xalçanın illüstrasiyası.

**9.** *«Ləçəktürünc»* xalçasının üllüstrasiyası. Azərbaycan xalçaları.

**10.** *«Şuşa»* xalçasının illüstrasiyası.

**11.** *«S. Vurğun»* xalçasının illüstrasiyası.

**12.** *«Qarabağ»* xalçasının illüstrasiyası.

**13.** *«Füzuli»* xalçasının illüstrasiyası.

**14.** *«Səfiəddin Urməvi»* xalçasının illüstrasiyası.

**15.** *«Şəbi-hicran»* xalçasının illüstrasiyası.

**16.** Bu kitabları oxuyun.

*ƏDƏBİYYAT SİYAHISI*

***Əsərləri***

❖ Kərimov L. Azərbaycan xalçası.- B.: Azərnəşr, 1961.- 30 s.

❖ Kərimov L. Azərbaycan xalçalarının naxış elementlərindən nümunələr.- B.: Elm, 1983.- 130 s.

❖ Kərimov L. «Buynuz adlı xalçaların mənşəyi»: Qarabağ xalçasının tarixinə dair //Elm və həyat.- 1981.- №2.- S. 34-36.

*DÖVRİ MƏTBUAT*

❖ Kərimli K. Ornamentin Allahı dunya xalçaçılıq aləminin Bibliyasını yaratdı (Azərbaycan xalq rəssasmı L.Kərimov haqqında)//Azadlıq.- 2000.-16 noyabr.-S.14

❖ Mehdixanlı T. İlmələrin nağılı (Azərbaycanın xalq rəssamı, mahir xalçaçı Lətif Kərimov haqqında)//Azərbaycan.- 2005.-16 yanv.-S.4

## *MÜNDƏRİCAT*

LƏTİF KƏRİMOV-100……………………………………………3

LƏTİF KƏRİMOVUN HƏYAT VƏ FƏALİYYƏTİNİN

ƏSAS TARİXLƏRİ……………………………………………..7

ELM VƏ MƏDƏNİYYƏT XADİMLƏRİ LƏTİF KƏRİMOV

HAQQINDA………………………………………………… 9

L.KƏRİMOVUN YARADICILIQ İRSİNİN

KİTABXANALARDA TƏBLİĞİ…………………….……….13

ƏDƏBİYYAT SİYAHISI………………………………………..16

*MƏMMƏD MƏMMƏDOV*

**Lətif Kərimovun 100 illik yubileyinin keçirilməsi ilə əlaqədar kitabxanaların görəcəyi işlər**

*Nəşriyyat redaktoru:* **T.Ağamirova**

*Korrektor:* **Ş.Əhmədova**

*Komputer dizaynı:* **S.İsayeva**

Ünvan: AZ-1000 Bakı ş., Xaqani küç.29;

E-mail : anl @ aznet. org

**M.F.Axundov adına**

**Milli Kitabxananın mətbəəsində**

**ofset üsulu ilə çap olunmuşdur.**

**Çapa imzalanmışdır: 07.07.06**

**Tirajı 150**

**Pulsuz**